Azadlıq Radiosu

DÜNYA

# Neft ucuzlaşır, dollar sabit qalır

1 saat öncə




Fars körfəzində İranın neft platforması

İyunun 18-də neftin qiyməti düşüb, dollar isə əsas valyutalara qarşı, demək olar ki, dəyişməyib. İnvestorlar ABŞ və İranın əldə etdiyi müvəqqəti sülh razılaşmasının qlobal enerji təchizatı ilə bağlı riskləri azalda biləcəyini gözləyirlər.

ABŞ xam nefti (WTI) 1.25 faiz ucuzlaşaraq bir barel üçün 75,83 dollara, "Brent" markalı neft isə 1.4 faiz azalaraq 78.41 dollara enib. Son günlər müşahidə olunan ucuzlaşma tendensiyası xüsusilə enerji idxalçısı olan ölkələrdə qlobal iqtisadi yavaşlama ilə bağlı narahatlıqları zəifldədib.

Beynəlxalq Enerji Agentliyi bildirib ki, Hörmüz boğazının yenidən açılmasından sonra neft bazarında 2027-ci ilə qədər əhəmiyyətli təklif artıqlığı yarana bilər.

Valyuta bazarlarında isə vəziyyət daha sabit olub. ABŞ dollarının əsas valyutalar səbətinə qarşı məzənnəsini ölçən dollar indeksi 0.03 faiz azalaraq 100.32 bəndə düşüb.

Avro 0.1 faiz bahalaşaraq 1.1511 dollara yüksəlib. Dollar isə Yapon yeninə qarşı cüzi möhkəmlənərək 160.65 yen səviyyəsinə çatıb ki, bu da 2024-cü ilin iyulundan bəri ən yüksək göstəricilərdən biridir.

17 iyun

## İran neftinin bazara qayıdacağı gözlənilir: Qiymətlər enir

İyunun 17-də dünya bazarlarında neft kəskin ucuzlaşıb. Qiymətlərin gerilməsinə səbəb İran neftinin tezliklə qlobal bazarlara qayıdacağı ilə bağlı yayılan xəbərlər olub.

Bununla da "Brent" markalı xam neftin qiyməti 80 dollarlıq psixoloji həddən aşağı düşüb. Bu, fevralın 28-də ABŞ-İran münaqişəsi başlayandan bəri qeydə alınan ən aşağı göstəricidir. Müharibədən əvvəl həm "Brent", həm də WTI markalı neftin bir bareli 65-70 dollar aralığında ticarət edilirdi.

Yüksək vəzifəli ABŞ rəsmisinin sözlərinə görə, Vaşinqton anlaşma memorandumu çərçivəsində İran neftinə sanksiyaları dayandıracaq. Bu isə bazara milyonlarla əlavə barel xam neftin daxil olması deməkdir.

HSBC bankının neft-qaz sektoru üzrə baş analitiki **Kim Füstye** bildirib ki, bazarlar Hörmüz boğazında daşımaların tam normallaşacağı ehtimalını yüksək qiymətləndirir. Bununla belə, maliyyə qurumu bu prosesin sentyabrın sonunadək davam edə biləcəyini proqnozlaşdırır.

Hörmüz boğazında təxminən üç ay davam edən məhdudiyyətlər qlobal neft ehtiyatlarının kəskin azalmasına səbəb olub. Hətta ABŞ-nin strateji ehtiyatları 1983-cü ildən bəri ən aşağı səviyyəyə düşüb.

İyunun 15-də ABŞ prezidenti **Donald Tramp** İranla müharibəni dayandırmaq üçün müvəqqəti razılaşma əldə olunduğunu elan edib. Bundan sonra neft 5 faiz ucuzlaşıb. Razılaşmanın tam detalları hələlik açıqlanmır.

İranın xarici işlər naziri **Abbas Əraqçi** iyunun 16-da bildirib ki, Tehran və Vaşinqton yekun razılığa nail olmaq üçün iyunun 19-da İsveçrədə yeni danışıqlar raunduna başlayacaqlar.

## Buna da bax:

Tramp: Sazişdə İranın nüvə silahı əldə etməyəcəyi 'çox aydın' yazılıb

Keçmiş diplomat: ABŞ və İran 'rüsum' sözünü fərqli yozur

ABŞ təhlükəsizlik eksperti: 'Trampın İranla sazişinin taleyi İsraildən asılıdır'

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur